BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 Humanitar elmlər seriyası 2010

# ƏDALƏTLİ MƏHKƏMƏ ARAŞDIRMASI HÜQUQU SAHƏSİNDƏ BEYNƏLXALQ STANDARTLARIN AZƏRBAYCAN RESPUBLİKASI QANUNVERİCİLİYİNƏ İMPLEMENTASİYASININ ÜMUMNƏZƏRİ MƏSƏLƏLƏRİ

**T.T.VƏLİYEV**
***Bakı Dövlət Universiteti***
***Veliyev_togrul@rambler.ru***

*Məqalədə ümumilikdə beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı əlaqə məsələlərinin təhlili, eyni zamanda, ədalətli məhkəmə araşdırması hüququ sahəsində beynəlxalq standartların Azərbaycan Respublikası qanunvericiliyinə implementasiyasının ümumnəzəri məsələləri əks olunmuşdur.*

Beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı əlaqə məsələlərinin təhlili müasir dövrdə mühüm, aktual və mürəkkəb problemlərdən biridir. Beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı əlaqəsi qloballaşma şəraitində xüsusi əhəmiyyət kəsb edir. Bütövlükdə qeyd edilməlidir ki, beynəlxalq hüquq dövlətdaxili hüquqla qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Bu, hər şeydən əvvəl, onunla şərtlənir ki, beynəlxalq sistemə daxil olmaqla, hər bir dövlət öz üzərinə beynəlxalq hüquq normaları ilə nəzərdə tutulan öhdəliklər götürür və bu da, öz növbəsində, dövlətdaxili sferada əks olunur.

Ümumiyyətlə, implementasiya ilə bağlı elmi ədəbiyyatlarda bu və ya digər dərəcədə fikir müxtəlifliyi mövcuddur. Məsələn, L.H.Hüseynov isə qeyd edir ki, beynəlxalq hüquq normalarının implementasiyası, yəni həyata keçirilməsi, prinsip etibarilə, yalnız milli qanunvericiliyin və milli məhkəmənin iştirakı ilə mümkündür. Bu tələbin yerinə yetirilməsinin forma və vasitələrinin seçilməsi isə hər bir dövlətin öz konstitusion qanunvericiliyində və praktikasında müəyyən olunur. Bütün bunlarla yanaşı, müəllif insan hüquqları haqqında müqavilələrin dövlətdaxili qüvvəsinin təmin edilməsinin 3 əsas üsulunun - qəbuletmə (adoption), inkorporasiya və transformasiyanın ayrılmasını məqsədəmüvafiq hesab edir (1, 32-38).

2000-ci ildə qəbul edilmiş BMT Minilliyin Bəyannaməsində beynəlxalq məsələlərdə olduğu kimi, milli işlərdə də insan hüquqlarına hörmət edilməsi prinsipinin möhkəmlənməsi barədə dövlətlərin razılığı ifadə olunmuşdur (2, 255). Bu müddəada beynəlxalq və daxili qanunçuluğun vahidliyi ideyası əks olunmuşdur. Bunlarla yanaşı, beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı təsirinin praktiki əhəmiyyəti nəinki təkcə dövlətlər, həmçinin dövlət orqanları, hüquqi şəxslər və insanlar üçün də durmadan artır.

S.V.Çerniçenko implementasiya anlayışı əvəzində transformasiya anlayşından istifadə edir və hüquqi texniki nöqteyi-nəzərdən onun aşağıdakı növlərini fərqləndirir: inkorporasiya; legitimasiya; göndərmə (3, 156).

E.M.Ametistovun fikrincə, dövlətlərin beynəlxalq normanın məqsədlərinin həyata keçirilməsinə yönələn davranışı beynəlxalq hüquqda «beynəlxalq hüquq normalarının implementasiyası» adlanır (4, 5-6). B.L.Zimnenkonun fikrincə, inkorporasiya beynəlxalq və dövlətdaxili hüquq normalarının razılaşdırılmasının mühüm üsuludur və bu, dövlətin beynəlxalq öhdəliklərinin realizəsi üçün dövlətdaxili normativ aktların qəbul edilməsində öz əksini tapır (5, 102). Bir sıra müəlliflər isə cinayət ədliyyəsi sahəsində beynəlxalq hüququn norma və standartlarının implementasiyasının bir-biri ilə dialektik şəkildə qarşılıqlı əlaqədə olan iki səviyyədə - dövlətdaxili və beynəlxalq səviyyədə həyata keçirilməsinin mümkünlüyünü vurğulayırlar. Onların fikrincə, müvafiq sferanın norma və standartlarının implementasiyasında əsas müddəa qismində BMT Nizamnaməsində təsbit olunmuş məqsəd və prinsiplər çıxış edir (6, 175-186).

Bundan başqa, ayrı-ayrı beynəlxalq sənədlərdə də cinayət-prosessual qanunvericiliyə beynəlxalq hüquq normalarının implementasiyası ilə bağlı müddəalar mövcuddur. Məsələn, MDB-nin Parlamentlərarası Assambleyasının 1996-cı ildə qəbul etdiyi Model Cinayət-Prosessual Məcəllənin 4-cü maddəsində göstərilir ki, beynəlxalq hüququn ümumtanınmış prinsip və normaları, o cümlədən, müstəqil dövlətlərin beynəlxalq müqavilələri onların cinayət-prosessual hüququnun tərkib hissəsidir və bilavasitə cinayət işləri üzrə ədalət mühakiməsi sferasında insan hüquq və azadlıqlarını meydana gətirir. Qeyd edilən aktın 5-ci maddəsi isə beynəlxalq hüquq normaları ilə milli hüquq normaları arasında kolliziya probleminin həlli ilə bağlı məsələləri özündə birləşdirir. Belə ki, həmin maddənin tələbinə əsasən beynəlxalq hüququn ümumtanınmış prinsip və normaları, müstəqil dövlətlərin qüvvəyə minmiş beynəlxalq müqavilələrinin müddəaları cinayət işləri üzrə mühakimə icraatı qaydalarını tənzimləyən qanunlara və digər aktlara münasibətdə üstün mövqeyə malikdir. Lakin əgər milli qanunvericilik aktları ilə beynəlxalq müqavilələr arasında ziddiyyət yaranarsa, sonuncunun tətbiqi əsas götürülür.

Məlumdur ki, beynəlxalq hüquq normaları yalnız dövlətdaxili hüquq sistemlərinin iştirakı ilə realizə oluna bilər. Bu mənada Q.V.İqnatenko qeyd edir ki, beynəlxalq hüquq normalarının implementasiyasının mühüm vasitəsi kimi dövlətdaxili tədbirlər qismində müəyyən qanunvericilik və digər normativ aktların qəbul edilməsi, həmçinin təşkilati xarakterli tədbirlərin görülməsi çıxış edir (7, 133-134). Başqa sözlə desək, hüquq normalarının səmərəliliyi məhz onların realizəsində təzahür edir. Buna uyğun olaraq, beynəlxalq hüquq normalarnın səmərəlilik dərəcəsi həlledici şəkildə onların həyata keçirilmə dərəcəsindən asılıdır (8, 226-238).

BCPH normalarının AR qanunvericiliyinə implementasiyasından danışarkən, müvafiq sferada mövcud olan ayrı-ayrı beynəlxalq sənədləri də qeyd etmək yerinə düşərdi. Belə ki, 1948-ci il Ümumdünya İnsan hüquqları Bəyannaməsinin 7-12-ci maddələri milli cinayət prosesinə dair müddəaları özündə ehtiva edir. Onlara aşağıdakılar aiddir: qanun qarşısında bərabərlik. qanun tərəfindən bərabər müdafə olunmaq hüququ (maddə 7); əsas hüquqların pozulması hallarında səlahiyyətli məhkəmələr tərəfindən bu hüquqların səmərəli şəkildə bərpa edilməsi hüququ (maddə 8); heç kəsin özbaşına həbs, tutulub saxlanılmağa və ya sürgün edilməyə məruz qalmaması (maddə 9); hər bir insanın öz hüquq və vəzifələrini müəyyənləşdirmək və ona qarşı qaldırılan cinayət ittihamının əsaslandırılmış olub-olmamasını aydınlaşdırmaq üçün ona qarşı qaldırılan işə müstəqil və qərəzsiz məhkəmə tərəfindən tam bərabərlik əsasında, açıq və ədalətin bütün tələblərinə riayət olunmaqla baxılmasını tələb etmək

hüququ (maddə 10); təqsirsizlik prezumpsiyası (maddə 11); heç kimin şəxsi və ailə həyatına müdaxilə, evinin toxunulmazlığına, gizli məktublaşmalarına, şərəf və nüfuzuna qəsd edilməməsi (maddə 12). 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsi qəbul edildikdən sonra 90 dövlətin konstitusiyasında adıçəkilən beynəlxalq sənəddə göstərilən müddəalara uyğun olan fundamental hüquqlar təsbit edilmişdir (9, 7-8). A.X.Saidov isə göstərir ki, BMT Baş Məclisinin qətnaməsilə qəbul edilməsinə baxmayaraq, Bəyannamə dövlətlərin insan hüquqları sahəsində öhdəliklərinin əsas mənbəbrindən biridir (10, 71).

L.H.Hüseynovun fikrincə, bilavasitə olmasa da, dövlətlərin ümumi praktikası (müvafiq müqavilələrdə iştirak, Bəyannamənin milli qanunvericiliyə bu və ya digər şəkildə daxil edilməsi, məhkmə qərarlarında Bəyannaməyə istinad edilməsi və s.) vasitəsilə bu müddəalar, bəziləri istisna olmaqla. beynəlxalq adət hüququnun tərkib hissəsinə çevrilmişdir (11, 174-175).

Mülki və siyasi hüquqlar haqqında 1966-cı il Beynəlxalq Paktında isə beynəlxalq, o cümlədən milli cinayət prosesi ilə bağlı olan digər normalar da təsbit edilmişdir. Onu da qeyd etmək lazımdır ki, Bəyannamədən fərqli olaraq. 1966-cı il Paktı cinayət prosesinə dair daha ətraflı və çox elementli normaları özündə birləşdirir. Nümunə qismində azadlıq və şəxsi toxunulmazlıq hüququ (maddə 9), bütün şəxslərin məhkəmə və tribunallar qarşısında bərabərliyi (maddə 10) kimi prinsipləri göstərmək olar. Belə ki, sonuncu müddəanın tərkib hissəsi sayılan və cinayət ittihamına baxılarkən təmin edilməli olan standartların siyahısı sadalanır: hər bir şəxsə qarşı irəli sürülən ittihamın xarakteri və əsasları başa düşdüyü dildə, təxirəsalınmadan və ətraflı xəbərdar edilmək; əsassız gecikdirmələrə yol verilmədən mühakimə olunmaq; tərcüməçi köməyindən pulsuz istifadə etmək; öz əleyhinə ifadə verməyə və günahkar olduğunu zorla etiraf etməyə məcbur edilməmək və s.

Məhkəmə orqanlarının müstəqilliyinin Əsas Prinsiplərində müvafiq qurumların fəaliyyətinə dair aşağıdakı rəhbər başlanğıclar sadalanır: məhkəmə orqanlarının müstəqilliyi; öz fikrini ifadə etmək və birləşmək azadlığı; ixtisaslaşdırılma, seçim və peşə hazırlığı; qulluq şəraiti və səlahiyyət müddəti; peşə sirri və peşə immuniteti; intizam tədbirləri, vəzifədən kənarlaşdırılma və işdən azad edilmə (12, 172-174).

Regional səviyyədə qəbul edilən beynəlxalq-hüquqi və beynəlxalq sənədlərdə də BCPH-yə dair kifayət normativ baza formalaşdırılmışdır. Nümunə qismində MDB çərçivəsində qəbul olımmuş 7 noyabr 2002-ci il tarixli Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında Kişinyov Konvensiyasını (AR onu bir sıra qeyd şərtlərlə imzalamışdır), 1998-ci il tarixli MDB «Hakimlərin, hüquq-mühafızə və nəzarət orqanları işçilərinin dövlət müdafiəsi haqqında Model Qanun», MDB-nin Cinayət prosesi iştirakçılarının müdafıəsi haqqında 2000-ci il Sazişini göstərmək olar.

Göstərilən məsələləri təhlil edən L.H.Hüseynov qeyd edir ki, formal olaraq presedent sayılmasa da, bu qərarlara həm Məhkəmənin özünün və digər müvafiq beynəlxalq orqanların, həm də milli məhkəmələrin praktikasında bu və ya digər işlərin həllində geniş istinad edilir (11, 192).

AR müstəqillik əldə etdikdən sonra beynəlxalq-hüquqi sənədlərə qoşulmaqla, milli qanunvericiliyində, o cümlədən cinayət-prosessual qanunvericiliyində implementasiya prosesini gücləndirmişdir. Nümunə qismində AR-in 1992-ci ilin iyul ayının 21-də Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakta qoşulmasını

göstərmək olar. Bundan başqa, AR 2001-ci ilin dekabr ayının 25-də Avropa Konvensiyası və ona Əlavə Protokollara qoşulmuşdur. Konvensiyanın bir sıra müddəaları cinayət-prosessual normaları özündə əks etdirir. Onlara azadlıq və toxunulmazlıq hüququ (maddə 5), ədalətli məhkəmə araşdırması hüququ (maddə 6), şəxsi və ailə həyatna hörmət hüququ (maddə 8) daxildir. Bundan əlavə, 22 noyabr 1984-cü il tarixli 7 saylı Protokolun 2-ci maddəsi (cinayət işlərinə dair hökmlərdən ikinci instansiyaya şikayət vermək hüququ), 3-cü maddəsi (məhkəmə səhvinə görə kompensasiya almaq hüququ), 4-cü maddəsi (iki dəfə mühakimə edilməmək və ya cəzalandırılmamaq hüququ) də bilavasitə cinayət-prosessual təminatları, o cümlədən cinayət prosesi gedişində insan hüquqlarının qorunmasına həsr edilmişdir.

AR Konstitusiyasnın cinayət-prosesi ilə bağlı normaları - 28 (azadlıq hüququ), 32 (şəxsi toxunulmazlıq hüququ), 33 (mənzil toxunulmazlığı hüququ), 60 (hüquq və azadlıqların məhkəmə təminatı), 61 (hüquqi yardım almaq hüququ), 62 (məhkəmə aidiyyətinin dəyişdirilməsinə yol verilməməsi), 63 (təqsirsizlik prezumpsiyası), 64 (bir cinayətə görə təkrarən məhkum etməyə yol verilməməsi), 65 (məhkəməyə təkrar müraciət hüququ), 66 (qohumların əleyhinə ifadə verməyə məcbur etməyə yol verilməməsi), 67-ci (tutulan, həbsə alınan və cinayət törədilməsində ittiham edilənlərin hüquqları) maddələri, VII fəsli (məhkəmə hakimiyyəti) və digər müddəaları məhz mövcud implementasiya prosesinin nəticəsidir.

Bımdan başqa, «Uşaq hüquqları haqqında» 19 may 1998-ci il tarixli AR Qanununun 42-ci maddəsi, 11 dekabr 1998-ci il tarixli «Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında» AR Qanunu, «Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında» AR Qanunu (29 dekabr 1998-ci il), 11 iyun 1999-cu il tarixli «Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında» AR Qanunu, 16 fevral 2001-ci il tarixli «Psixiatriya yardımı haqqında» AR Qanunu, «Məhkəmə qərarlarının icrası haqqında» AR Qanunu (27 dekabr 2001-ci il), 7 dekabr 1999-cu il tarixli «Prokurorluq haqqında» AR Qanunu, «Cinayət işlərinə dair hüquqi yardım haqqında» AR Qanunu (29 iyun 2001-ci il), 28 dekabr 1999-cu il tarixli «Vəkillik və vəkillik fəaliyyəti haqqında» AR Qanunu məhz bu sıradandır. Həmçinin 10 iyun 1997-ci il tarixli «Məhkəmələr və hakimlər haqqında» AR Qanunu, xüsusilə onun ədalət mühakiməsinin həyata keçirilməsinə dair əsas müddəaları beynəlxalq hüquq normalarının implementasiyası ilə tam şəkildə uyğunlaşdırılmışdır.

AR ərazisində cinayət-prosessual münasibətbri tənzimləyən əsas normativ akt – 2000-ci ilin sentyabr ayının 1-dən qüvvəyə minən AR CPM-i də AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəa və öhdəliklərini əldə rəhbər tutaraq cinayət-mühakimə icraatının, onun vəzifə və məqsədlərinin həyata keçirilməsi, xüsusilə cinayət prosesində insan hüquqlarının qorunması ilə bağlı müddəaları özündə əks etdirir (13, 632).

Azərbaycan Respublikası 2001-ci il yanvarın 25-də Avropa Şurasına daxil olarkən İnsan hüquqların və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın (Konvensiyasını) bir il ərzində ratifikasiya etmək öhdəliyini üzərinə götürmüşdü. Elə həmin il dekabrın 25-də Milli Məclis sözügedən Konvensiyanın və onun 1, 4, 6 və 7 saylı protokollarının ratifikasiyası haqqında Qanun qəbul etdi. Azərbaycan Respublikasının Prezidenti Qanunu imzaladıqdan sonra Konvensiya 2002-ci il martın 6-da «Azər-

baycan» qəzetində dərc edilərək qüvvəyə mindi.

Konvensiyada nəzərdə tutulan hüquq və azadlıqların tətbiqinin qanunvericilik əsası Azərbaycan Respublikasının Konstitusiyasıdır; Konstitusiyanın 12-ci maddəsində göstərilir ki, insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması dövlətin ali məqsədidir. Bununla yanaşı, nəzərdə tutulub ki, insan hüquq və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə və deməli, həm də ilk növbədə, Konvensiyaya uyğun olaraq tətbiq edilir.

Avropa Məhkəməsinin təcrübəsində «mülki hüquq və vəzifələr» dedikdə, xüsusi hüquq məsələlərinə (məsələn, fərdlər arasında) aid edilən anlayış nəzərdə tutulur. Avropa ölkələrinin çoxunun hüquq sistemində ümumi və xüsusi hüquq arasında fərq qoyulmur. Ona görə də, 6-cı maddənin əhatə etdiyi presedent hüququnun yeganə dəqiq meyarı odur ki, bu zaman hər ikisi özəl şəxs olan, yaxud özəl şəxslə dövlət arasında olan mübahisə başa düşülür. Məhkəmə qərarlarında dəfələrlə qeyd edilib ki, 6-cı maddənin 1-ci bəndi nəticəsi özəl şəxsin hüquq və vəzifələrinin müəyyən edilməsi ilə və (və ya) əsas məzmunu ilə bilavasitə bağlı olan məhkəmə araşdırmasına şamil edilir.

## ƏDƏBİYYAT


1. Hüseynov L.H İnsan hüquqları sahəsində beynəlxalq müqavilələrin Azərbaycan Respublikasında implementasiyası məsələləri / İnsan hüquqları. Bülleten 1, Bakı: 1998, s. 32-38.
2. Лукашук И.И. Международное право. Общая часть. Учебник. М.: 2005, с.255.
3. Черниченко С.В. Теория международного права. В 2-х томах. Том 1: Современные теоретические проблемы, М.: НИМП, 1999, 336 с; Том 2: Старые и новые теоретические проблемы. М.: НИМП, 1999, 531 с.
4. Аметистов Э.М. Международное право и труд: Факторы имплементации международных норм о труде. М.: Международные отношения, 1982, 5-6 с.
5. Зимненко Б.Л. Согласование норм внутригосударственного и международного права в правовой системе России. Московский журнал международного права, 2000, № 4, с. 94-103.
6. Бородин С.В., Ляхов Е.Г. Международное сотрудничество в борьбе с уголовный преступностью. М.: Наука, с. 175-186.
7. Международное право. Учебник для студентов вузов, обучающихся по напр. и спец. «Юриспруденция». Игнатенко Г.В., Суворова В.Я., Тиунов О.И. и др. Под ред. Г.В. Игнатенко. 2-е изд., перераб. и доп, М.: Высшая школа, 1995, 398 с.
8. Мингазов Л.Х. Эффективность норм международного права. Теоретические проблемы, Казань: Казанский Университет, 1999, 376 с.
9. Права человека: итоги века, тенденции, перспективы. Под ред. Е.А.Лукашевой. М.: Норма, 2002, 448 с.
10. Саидов А.Х. Общепризнанные права человека. М.: МЗ Пресс, 2004, 268 с.
11. Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik, Bakı: Hüquq ədəbiyyatı, 2000, 408 s.
12. Международные акты о правах человека. Сборник документов. Сост. Карташкин В.А., Лукашева Е.А. 2-е изд., доп. М.: НОРМА (Издательская группа НОРМА-ИНФРА.М), 2002, 944 с.
13. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. Bakı: Qanun, 2005, 499 s.

## ОБЩИЕ ТЕОРЕТИЧЕСКИЕ ВОПРОСЫ ИМПЛЕМЕНТАЦИИ МЕЖДУНАРОДНЫХ СТАНДАРТОВ В ОБЛАСТИ ПРАВА СПРАВЕДЛИВОГО СУДЕБНОГО РАЗБИРАТЕЛЬСТВА В ЗАКОНОДАТЕЛЬСТВО АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Т.Т.ВЕЛИЕВ**

**РЕЗЮМЕ**

В данной статье анализируется Содержание права справедливого судебного расследования: международные стандарты и законодательство Азербайджанской Республики во взаимном соотношении были исследованы механизм реализации права справедливого судебного разбирательства, имеющиеся в этой области международные стандарты и законодательство Азербайджанской Республики. Так же были перечислены основные составные элементы реализации права справедливого судебного разбирательства. Были отражены общие теоретические вопросы имплементации международных стандартов в области права справедливого судебного разбирательства в законодательство Азербайджанской Республики.

## GENERAL THEORETICAL ISSUES OF APPLICATION OF THE INTERNATIONAL STANDARDS IN THE FIELD OF THE RIGHT TO FAİR JUDICIAL INVESTIGATION IN THE LEGISLATION OF THE AZERBAIJAN REPUBLIC

**T.T.VALIYEV**

**SUMMARY**

The article analyzes the Content of the right to fair judicial investigation: international standards and the legislation of the Azerbaijan Republic, the mechanism to implement the right to fair judicial investigation, the international standards in this field and the legislation of the Azerbaijan Republic are comparatively researched . The main elements of the implementation of the fair to just judicial investigation as well as general theoretical issues of application of the international standards in the field of the right to just judicial investigation in the legislation of the Azerbaijan Republic are reflected in the article.